# 2012-ci ilin yanvar-mart ayları üçün Azərbaycan Respublikasının

# T Ə D İ Y Ə  B A L A N S I [1]

*Əvvəlki illərdə olduğu kimi 2012-ci ilin yanvar-mart aylarında da xarici iqtisadi əməliyyatlar neft-qaz sektoru üzrə müsbət saldoya, qeyri-neft sektoru üzrə isə mənfi saldoya malik olmuşdur.*

*Neft-qaz sektoru üzrə ümumi daxilolmalar əsasən neftin və təbii qazın ixracı və bu sektora cəlb edilən xarici kapitalın hesabına formalaşır. Bu sektor üzrə ödənişlər isə mənfəətin və investisiyaların repatriasiyasını, avadanlıqların və xidmətlərin idxalını əks etdirir. 2012-ci ilin yanvar-mart aylarında neft-qaz sektoru üzrə yaranmış ümumi müsbət saldo 6.5 mlrd. $ olmuşdur.*

## *Tədiyə balansının əsas göstəriciləri*

Mln. $

| | 2011-ci il, I rüb | 2012-ci il, , I rüb |
|---|---|---|
| ***I.Cari əməliyyatlar hesabının saldosu*** | ***4826.0*** | ***4635.3*** |
| Xarici ticarət balansı | 6554.2 | 6816.5 |
| Xidmətlər balansı | -522.7 | -934.1 |
| Gəlirlər balansı | -1347.1 | -1285.1 |
| -İnvestisiya gəlirlərinin repatriasiyası | -1447.5 | -1373.8 |
| Cari transfertlər balansı | 141.6 | 38.0 |
| ***II.Kapitalın və maliyyənin hərəkəti hesabının saldosu*** | ***-1732.3*** | ***-2217.1*** |
| Birbaşa investisiyalar | 77.1 | 208.8 |
| - Azərbaycana cəlb olunmuş | 819.9 | 1161.0 |
| - Xaricə yönəldilmiş | -34.9 | -206.7 |
| - İnvestisiyaların repatriasiyası | -707.9 | -745.5 |
| Kreditlər və digər investisiyalar | -1809.4 | -2427.9 |
| Neft bonusu | - | 2.0 |
| ***III.Tədiyə balansının ümumi saldosu (Ölkənin ehtiyat aktivlərinin dəyişməsi)*** | ***3093.7*** | ***2418.2*** |

## Cari əməliyyatlar hesabı

2012-ci ilin yanvar-mart aylarında cari əməliyyatlar hesabında 4.6 mlrd. $ məbləğində profisit yaranmış, o cümlədən neft-qaz sektoru üzrə cari hesabın profisiti 6.6 mlrd. $ məbləğində olmuşdur. Neft-qaz sektorunun profisiti qeyri-neft sektoru üzrə cari hesabın 2.0 mlrd. $ məbləğində kəsirini tam örtmüşdür.

***1 Tədiyə balansının metodoloji tərtibatı ilə bağlı*** http://cbar.az/assets/1186/final_metod.pdf ***səhifəsinə müraciət edilə bilər.***

Mln. $




### *Xarici ticarət balansı*

Xarici ticarət dövriyyəsi 11.1 mlrd. $ təşkil etmiş və *xarici ticarət balansı 6.8 mlrd. $ məbləğində müsbət saldo ilə nəticələnmişdir.*

2012-ci ilin yanvar-mart aylarında Azərbaycanın dünyanın 122-dək dövləti ilə ticarət əlaqələri olmuşdur. Xarici ticarətin 7.3%-i MDB üzvü olan dövlətlərin, 92.7%-i isə digər xarici dövlətlərin payına düşür. Dövlətimizin ABŞ, İtaliya, Birləşmiş Krallıq, Türkiyə, Fransa, Almaniya, Yaponiya, Rusiya, Hindistan və İsrail ilə daha intensiv ticarət əlaqələri olmuşdur. (Ümumi ticarətdə bu ölkələrin payı 69.7% təşkil etmişdir).

### *2012-ci ilin yanvar-mart aylarında xarici ticarət üzrə əsas tərəf müqabilləri*

***(Mln. $)***

| | ***Əmtəə dövriyyəsi*** | ***İxrac*** | ***İdxal*** | ***Saldo*** |
|---|---|---|---|---|
| *ABŞ* | *1343* | *1203* | *140* | *+1063* |
| *Italiya* | *1295* | *1250* | *45* | *+1205* |
| *B.Krallıq* | *1252* | *1151* | *101* | *+1050* |
| *Türkiyə* | *857* | *572* | *285* | *+287* |
| *Fransa* | *586* | *557* | *29* | *+528* |
| *Almaniya* | *561* | *365* | *196* | *+169* |
| *Yaponiya* | *534* | *488* | *46* | *+442* |
| *Rusiya Federasiyası* | *504* | *215* | *289* | *-74* |
| *Hindistan* | *440* | *418* | *22* | *+396* |
| *İsrail* | *380* | *361* | *19* | *+342* |
| *Başqaları* | *3371* | *2390* | *981* | *+1409* |
| ***Cəmi*** | ***11123*** | ***8970*** | ***2153*** | ***+6817*** |
| *O cümlədən:* | | | | |
| ***MDB dövlətləri*** | ***810*** | ***292*** | ***518*** | ***-226*** |
| ***Digər dövlətlər*** | ***10313*** | ***8678*** | ***1635*** | ***+7043*** |

**Əmtəə ixracı.** Hesabat dövründə əmtəə ixracı 9.0 mlrd. $ təşkil etmişdir. İxrac olunmuş malların strukturunda neft-qaz məhsullarının payı 96% olmuşdur.

Xarici dövlətlərə 8.3 mlrd. $ neft məhsulları ixrac olunmuş, ixrac olunmuş neft məhsullarının 416.9 mln. $-ı neft emalı məhsullarının, 7.8 mlrd. $-ı isə xam neftin ixracının payına düşür.

İxrac olunmuş xam neftin 7.4 mlrd. $-ı Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) tərəfindən hasil olunmuş neftin ümumi dəyəridir. İxrac olunmuş ümumi xam neftin 423.5 mln. $-ı isə digər müəssisələr tərəfindən xaricə göndərilmişdir ki, bunun da 37.9 mln.$ Şahdəniz yatağından hasil edilmiş kondensatın, 385.6 mln. $ isə ARDNŞ-nin payına düşür.

2012-ci ilin yanvar-mart aylarında ölkənin **qeyri neft-qaz** ixracı ötən ilin müvafiq dövrünə nisbətən 1.4% artaraq 351.5 mln.$ təşkil etmişdir.

***İxracın strukturu***

| | 2011-ci il, I rüb | | 2012-ci il, I rüb | |
|---|---|---|---|---|
| | Məbləğ, mln.$ | Xüsusi çəkisi, %-lə | Məbləğ, mln.$ | Xüsusi çəkisi, %-lə |
| **İxrac - cəmi** | **8546.1** | **100.0** | **8970.0** | **100.0** |
| o cümlədən: | | | | |
| 1.Yanacaq-xammal məhsulları | 8330.5 | 97.5 | 8770.1 | 97.8 |
| - neft-qaz məhsulları | 8199.6 | 95.9 | 8618.5 | 96.1 |
| - digər xammal | 130.9 | 1.6 | 151.6 | 1.7 |
| 2.Maşın və avadanlıq | 45.6 | 0.5 | 28.3 | 0.3 |
| 3.İstehlak malları | 167.6 | 2.0 | 167.7 | 1.9 |
| 4.Digər mallar | 2.4 | - | 3.9 | - |

**Əmtəə idxalı.** Hesabat dövründə əmtəə idxalı 2.2 mlrd. $ təşkil etmişdir. İstehlak mallarının idxalının ümumi dəyəri isə 899.7 mln. $ olmuş, bunun da 301.1 mln. $-ı ərzaq məhsullarının payına düşür.

***İdxalın strukturu***

| | 2011-ci il, I rüb | | 2012-ci il, I rüb | |
|---|---|---|---|---|
| | Məbləğ, mln.$ | Xüsusi çəkisi, %-lə | Məbləğ, mln.$ | Xüsusi çəkisi, %-lə |
| **İdxal-cəmi** | **1991.9** | **100.0** | **2153.5** | **100.0** |
| cümlədən: | | | | |
| 1.İstehlak malları | 791.3 | 39.8 | 899.7 | 41.8 |
| - ərzaq məhsulları | 317.9 | 16.0 | 301.1 | 14.0 |
| - digərləri | 473.4 | 23.8 | 598.6 | 27.8 |
| 2.İnvestisiya yönümlü mallar | 142.4 | 7.1 | 163.5 | 7.6 |
| - beynəlxalq neft-qaz konsorsiumları | 131.4 | 6.6 | 144.6 | 6.7 |
| - digərləri | 11.0 | 0.5 | 18.9 | 0.9 |
| 3. Digər mallar | 1058.2 | 53.1 | 1090.3 | 50.6 |

İdxalın strukturunda xarici investisiyalar hesabına gətirilmiş maşın-avadanlıqların və malların xüsusi çəkisi 7.6% təşkil edərək 163.5 mln. $ olmuşdur. Bunun 88.4%-ni

beynəlxalq neft-qaz kontraktları çərçivəsində istifadə olunmuş investisiyalar hesabına idxal edilmiş mallar təşkil edir. Bundan başqa ölkəyə ümumi məbləği 1090.3 mln. $ olan istehsal təyinatlı maşın-avadanlıq, kimya, qara və əlvan metal məhsulları da gətirilmişdir.

***Xidmətlər balansı***

2012-ci ilin yanvar-mart aylarında xarici dövlətlərlə Azərbaycanın iqtisadi əlaqələrində qarşılıqlı xidmətlər əsas yerlərdən birini tutmuş və bu xidmətlərin ümumi həcmi 2496.1 mln. $ təşkil etmişdir. Bunun 1715.1 mln. $-ı qeyri-rezidentlər tərəfindən Azərbaycanın rezidentlərinə, 781 mln. $ isə Azərbaycan rezidentlərinin xarici ölkələrin rezidentlərinə göstərilən xidmətlərdir.

Qarşılıqlı xidmətlər dövriyyəsinin 14.9%-i nəqliyyat xidmətləri üzrə aparılan əməliyyatların payına düşür. Ümumi dəyəri 373.1 mln. $ olan nəqliyyat xidmətlərinin 61.9%-i Azərbaycan rezidentlərinin xarici dövlətlərin nəqliyyat sistemlərindən istifadə etmələri ilə əlaqədardır.

Azərbaycanın rezidentlərinin qeyri-rezidentlərə göstərdikləri nəqliyyat xidmətlərinin ümumi dəyəri isə 142.2 mln. $ təşkil etmişdir.

Hesabat dövründə xarici ölkə vətəndaşlarına turizmlə bağlı göstərilən xidmətlərin dəyəri 466.0 mln. $ məbləğində qiymətləndirilmişdir. Bunun 42.4%-i qeyri-rezidentlərin Azərbaycana işgüzar səfərləri ilə bağlıdır.

Öz növbəsində xarici ölkələr tərəfindən Azərbaycan rezidentlərinə turizmlə bağlı göstərilən xidmətlərin dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən 2.2 dəfə artaraq 581.5 mln. $ məbləğində olmuşdur. Bunun 63%-i Azərbaycan vətəndaşlarının şəxsi səfərləri ilə bağlı xarici ölkələrdə olarkən sərf etdikləri vəsaitlərin (məkik idxal üçün vəsaitlər istisna olmaqla) payına düşür.

Ümumiyyətlə, qarşılıqlı xidmətlərin ölkənin xarici dövlətlər ilə əmtəə və xidmətlər üzrə ümumi idxal-ixrac dövriyyəsində xüsusi çəkisi 18.3% təşkil etmişdir.

***Gəlirlər balansı***

Hesabat dövründə gəlirlər üzrə daxilolmaların və ödənişlərin ümumi dövriyyəsi 1723.0 mln. $-a çatmışdır. Bunun 87.3%-ni (1504.0 mln. $) Azərbaycandan ödənişlər təşkil edir. Bu məbləğin isə əsas hissəsini (1242.0 mln. $) beynəlxalq neft-qaz konsorsiumları üzrə xarici investorların payına düşən gəlirlərin repatriasiyası (əsasən xam neft şəklində), qeyri-rezidentlərə ödənilmiş əmək haqları (36.5 mln. $) və xarici kreditlərdən istifadəyə görə ödənilən faizlər (70.5 mln. $) təşkil edir.

***Cari transfertlər balansı***

Cari transfertlər üzrə xarici ölkələrlə aparılan əməliyyatların ümumi dəyəri 819.3 mln. $ məbləğində qiymətləndirilmişdir. Bu məbləğin 52.3%-ni ölkəyə daxilolmalar təşkil edir.

Cari transfertlər üzrə ümumi daxilolmaların 93.6%-ni xarici ölkələrdən fiziki şəxslərin pul baratları, 1.8%-ni ölkəyə gətirilən humanitar idxal mallarının dəyəri, 4.6%-ni isə digər daxilolmalar təşkil edir.

Bütövlükdə, cari transfertlər üzrə əməliyyatların müsbət saldosu 38.0 mln. $ təşkil etmişdir.

## Kapitalın və maliyyənin hərəkəti

2012-ci ilin yanvar-mart aylarında xaricdən cəlb olunmuş kapitalın ümumi həcmi 2.5 mlrd. $ təşkil etmişdir. Bu göstərici əsasən ölkəyə cəlb olunmuş birbaşa investisiyaların və xarici kreditlərin hesabına formalaşmışdır.

***Cəlb olunmuş xarici kapitalın strukturu***

| | 2011-ci il, I rüb | | 2012-ci il, I rüb | |
|---|---|---|---|---|
| | Mln. $-la | Xüsusi çəkisi, %-lə | Mln. $-la | Xüsusi çəkisi, %-lə |
| **Birbaşa investisiyalar** | **819.9** | **48.1** | **1161.0** | **47.3** |
| - neft–qaz sektoru | 696.2 | 40.8 | 967.5 | 39.4 |
| - digər sektorlar | 123.7 | 7.3 | 193.5 | 7.9 |
| **Kreditlər və digər investisiyalar** | **884.9** | **51.9** | **1293.0** | **52.6** |
| - dövlət təminatlı kreditlər | 447.3 | 26.2 | 267.5 | 10.9 |
| - dövlət təminatı olmayan kreditlər | 298.3 | 17.5 | 268.1 | 10.9 |
| - neft–qaz sektoru | 1.1 | 0.1 | - | - |
| - banklar | 141.7 | 8.3 | 225.8 | 9.2 |
| - digərləri | 155.5 | 9.1 | 42.3 | 1.7 |
| - digər investisiyalar | 139.3 | 8.2 | 757.4 | 30.8 |
| **Neft bonusu** | **-** | **-** | **2.0** | **0.1** |
| **C Ə M İ** | **1704.8** | **100.0** | **2456.0** | **100.0** |

### *Birbaşa investisiyalar*

Birbaşa investisiyalar formasında xaricdən cəlb olunmuş sərmayələrin ümumi məbləği 1.2 mlrd. $ olmuşdur. Bu investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 83.3% təşkil etmişdir. Cəlb olunmuş sərmayələr iri neft-qaz layihələrinin, əsasən BP Eksploreyşn (Şah Dəniz) Ltd. layihəsi və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin Azəri-Çıraq-Günəşli yatağında görülən işlərin maliyyələşdirilməsi ilə əlaqədar ölkə iqtisadiyyatında istifadə olunmuşdur.

Qiymətləndirmələrə görə qeyri-neft sektoruna cəlb olunmuş birbaşa investisiyaların ümumi məbləği 193.5 mln. $ olmuşdur. Bu da ölkəyə cəlb olunmuş birbaşa xarici investisiyaların ümumi həcminin 16.7%-ni təşkil etmişdir.

### *Kreditlər və digər investisiyalar*

Hesabat dövründə kreditlər və digər investisiyalar formasında cəlb olunmuş sərmayələrin xüsusi çəkisi xarici kapitalın strukturunda 52.6% (1293.0 mln. $) təşkil etmişdir. Bu məbləğ əsasən birbaşa dövlət və dövlət təminatlı, neft-qaz sektoru və banklar tərəfindən cəlb edilmiş kreditlər hesabına formalaşmışdır. Kreditlərin 49.9%-i

(267.5 mln. $) birbaşa dövlət və dövlət təminatı əsasında cəlb olunmuş kreditlər (beynəlxalq maliyyə və digər təşkilatlar tərəfindən ayrılmış kreditlər), 50.1%-i (268.1 mln. $) isə dövlət təminatı olmayan kreditlərdir ki, bunun da 225.8 mln. $-ı banklar, 42.3 mln. $-ı isə digər müəssisələr və firmalar tərəfindən cəlb olunmuşdur.

Əvvəlki dövrlərdə cəlb olunmuş kreditlər üzrə 511.4 mln. $ geri qaytarılmışdır. Qaytarılmış kreditlərin 46.5%-i (237.8 mln. $) bank sisteminin, 10.5%-i (53.9 mln. $) dövlət və dövlət təminatı əsasında cəlb olunmuş kreditlərin, 37.4%-i (191.0 mln. $) neft-qaz sektorunun, 5.6%-i (28.7 mln. $) isə digər müəssisələr və firmaların payına düşür.

## Ehtiyat aktivləri

Hesabat dövründə ölkənin ehtiyat aktivləri 2418 mln. $ məbləğində artmışdır.